**Bu gün Azərbaycan diasporu inkişaf mərhələsini yaşayır. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımız qürbətdə yaşasalar da, Vətənlərini unutmur, Azərbaycan adını hər zaman yüksəkdə tutur, təşkilatlanır, birləşirlər. O da məlumdur ki, Azərbaycan diasporu hazırkı səviyyəsinə çatanadək çətin yol keçib. Onun vəziyyəti, problemləri, ölkəmizi dəstəkləmələri həmişə aktual mövzudur. Buna görə dünyada ilk diaspor təşkilatlarımızdan olan "Latviya-Azərbaycan" Kültür Assosiasiyasının rəhbəri Faiq Səfərovla söhbətləşdik.**

# Yaddan çıxmaz Azərbaycan!

**– Faiq bəy, Vətənə xoş gəlmisiniz. Necəsiniz?**

– Təşəkkür edirəm, sizləri gördüm daha yaxşı oldum.

**– Faiq bəy, sizin təşkilatınız ilk diaspor təşkilatlarımızdandır. Keçdiyiniz yol barədə söz açmağınızı istərdik.**

– Biz o vaxt toplandıq, o zaman yarandıq ki, həmin vaxt çoxları, diaspor sözünü heç bilmir, sadəcə, anlamırdı. Belə təşkilatlanmalar, demək olar, yox idi.

50 ilə yaxındır Latviyada yaşayıram, oranın vətəndaşıyam. Bu ölkəni çox sevsəm də, onu ikinci Vətən saysam da, Gəncə bəyzadəliyi kökənimi unutmuram. Hara getmişəmsə, Azərbaycan naminə hansısa işlər görməyə çalışmışam. "Latviya-Azərbaycan" Kültür Assosiasiyasının yaranması bu istəkdən, bu zərurətdən qaynaqlanırdı. Təşkilat ötən əsrin 80-ci illərinin sonunda Riqada yaradılsa da, onun əsasını 1948-1950-ci illərdə, məşhur azərbaycanlı rəssam və SSRİ-də tanınmış hərbi jurnalist olmuş əmim Aydın Səfərov qoymuşdur. Bu tarixə əsaslanaraq deyə bilərəm ki, Azərbaycanın dünyadakı ilk diaspor təşkilatını biz formalaşdırmışıq. Təşkilatımız Azərbaycanın hələ müstəqil olmadığı bir dövrdə – 21 mart 1988-ci ildə yaranıb.

1988-1990-cı illərdə Azərbaycan diasporu kimi işimizi quranda, nə təcrübəmiz vardı, nə də kimdənsə nümunə götürmüşdük. İlk diaspor təşkilatı kimi bu gün sözümüzü deyirik, bir sözlə, diaspor təşkilatları sırasında imzamız, çəkimiz var. Ancaq Latviyadakı soydaşlarımız, əsasən, biznesə maraq göstərir. Təəssüf ki, texnoloji, intellektuallıq tələb edən sahələrə axın çox azdır. Nəticədə erməni lobbisinin və diasporunun gücləndiyini görürük. İllərdir müşahidə edirəm ki, soydaşlarımız mədəni tədbirlərə, o qədər maraq göstərmirlər.

Təşkilatımızın üzvlərinin sayı kifayət qədər çoxdur. Müstəqil ictimai birliyik. 1989-cu il martın 21-də "Azərbaycan Bazar günü Milli məktəbi" adlı yeniliyə imza atdıq. Təsis etdiyimiz bu məktəbdə tələbələrə Azərbaycan, türk, latış, rus və ərəb dillərində təhsil verirdik, mənəvi dəyərlərimizi aşılayırdıq, xaricdə, ilk dəfə olaraq, Qurani-Kərimi öyrədirdik. 1990-cı ildə radio yaratdıq. Ona həm redaktorluq edirdim, həm aparıcılıq. Radio 5 il fəaliyyət göstərdi.



Azərbaycanın dövlət müstəqilliyinin tanınmasında diaspor təşkilatımızın böyük rolu olub. O zaman Xocalı soyqırımını təbliğ edirdik, ölkə ictimaiyyətini durmadan məlumatlandırırdıq. Özüm bu barədə mətbuatda dəfələrlə çıxışlar etmişəm. Məlum olduğu kimi, 1992-ci il yanvarın 8-də Latviya Respublikasının Ali Soveti (Parlamenti) Azərbaycan Respublikasının müstəqilliyini tanıdı. O vaxt erməni diaspor təşkilatları bizi nümunə göstərirdilər. Latviyada teatr da yaratmışdıq, televiziya da. Sonra mətbuatla əməkdaşlıq etmək istədik, lakin alınmadı...

1992-ci ildə Latviyanın ən baxımlı telekanallarının birində Çingiz Mustafayevin 15 dəqiqəlik "Xocalı faciəsi" filmi nümayiş etdirildi. Bu bizim xidmətimiz idi. Dünyanın bir çox ölkələri faciə barədə, məhz, həmin filmin sayəsində xəbər tutdu.

**– Sizin Avropanın nüfuzlu siyasətçiləri ilə görüşləriniz olub. Sizcə, lobbiçilik fəaliyyətimiz hansı səviyyədədir?**

– Etiraf edək ki, mövcud sahədə müəyyən problemlər var. Mən sizə albomda şəkilləri göstərim (masanın üzərinə qoyduğu albomları işarə edir – red.). Baxın, nə qədər mötəbər insanlarla görüşüb əlaqələr qurmuşuq. Bəziləri ilə dostluğumuz qorunur...

Bu şəxslər təşkilatımızın vasitəsilə, Azərbaycan və azərbaycanlılar haqqında məlumatlar alırdılar. Düşünürəm, onlarla daha yaxşı işləmək olardı. Nəzərə alaq ki, yüksək səviyyəli şəxslərlə təmasların yaradılması heç də asan deyil. Özü də şərt yalnız təmas deyil, gərək, qurulmuş isti münasibətlər davamlı şəkil alsın. Belə olduqda həmin adamlar işlədikləri yerlərdə Azərbaycanın sözcüsü kimi davranacaqlar. Buna can atırdıq. Çalışırdıq ki, ölkəmiz haqqında, onun problemləri barədə bacardıqca daha çox informasiya ötürə bilək.

**– Problemləri nədə görürsünüz?**

– İllərdir fəaliyyət göstərən təşkilatıq. Yaxşı olardı ki, Diaspor Komitəsi bizimlə əlaqələr qursun, əlaqəli işləyək. Biz bu dövlət orqanı ilə hər bir əməkdaşlığa hazırıq.

Riqadan Bakıya hava reysimiz yoxdur. 2006-cı ildə Latviyanın Hava Yolları qurumu təyyarə reysi açmaq istəmişdi. O zaman Riqa-Bakı-Riqa, Riqa-Tbilisi-Riqa reyslərini açmaq fikri var idi. Bu, ciddi məsələ idi. Həmin qurum ikinci variant üzərində dayandı. Halbuki Bakıya danışıqlar üçün 17 nəfərlik komissiya ilə gəlmişdilər. Aralarında 7 deputat, 3 nazir də vardı. Yaxşı şans idi. Təsəvvür edin, hazırda Riqadan Batuma həftədə 2 təyyarə reysi var. Bizdə də belə ola bilərdi. Gərək, adamlarla, daha yaxşı iş aparılaydı. Buna can atırdıq. Təsəvvür edin ki, hazırda mən Polşa vətəndaşı kimi ABŞ-a, Fransaya, Almaniyaya, Gürcüstana vizasız gedə bilirəm, amma öz doğma vətənimə yox. Viza məsələsi böyük problemlər yaradır. Bu sayaq məsələlər münasibətlərə yaxşı təsir göstərmir.

Problemlər müəyyən mənada ümumi xarakter də daşıyır. Məsələn, dünyada azərbaycanlıların 2 mindən çox diaspor təşkilatı mövcuddur, lakin onların çoxunun yalnız adı var. Bizim təşkilat belə olmayıb, real iş görüb.

**– Digər ölkələrdəki diaspor qurumlarımız ilə əlaqələriniz hansı səviyyədədir?**

– Yüksək səviyyədə. Belə diaspor təşkilatları çoxdur. Əsas əlaqələrimiz isə Avstraliya, Yeni Zelandiya, Ukrayna, Danimarka kimi ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ilədir.

**– Təşkilatınız üçün hansı fəaliyyət istiqamətləri xarakterikdir?**

– Biz mütəmadi surətdə Azərbaycanın, həm siyasi, həm də mədəni həqiqətlərinin təbliği ilə məşğuluq. Hələ ötən əsrin 90-cı illərində "Riqada Bakı günləri" adlanan 10 günlük mədəniyyət günləri keçirmişdik. Həmin festivalda Bakıdan gələn qonaqların sayı 180 nəfərdən çox idi. Mədəniyyət günləri çərçivəsində muğam üçlüyü, klassik musiqi, caz-konsert, kamera musiqisi, müasir musiqi konserti oldu. Eyni zamanda, Azərbaycan rəssamlarının sərgisini, milli mətbəx festivalını keçirmişdik. İllər boyu bu təbliğatı davam etdirmişik. Azərbaycanın qan yaddaşına aid günlərdə hər zaman mövqe ortaya qoymuşuq. Bacardığımız qədər, Azərbaycan həqiqətlərini, dəyərlərini təbliğ etmək üçün əlimizdən gələni etmişik.

**– Diasporumuzun fəal nümayəndəsi olaraq Azərbaycanın hazırkı vəziyyətini necə dəyərləndirirsiniz?**

– Azərbaycan hədsiz inkişaf edib, gözəlləşib. Bakı gözəldir, hətta Riqadan da. Dövlət çox güclüdür, maliyyə və hərbi imkanları genişdir. Biz qalib xalqıq, qalib ölkəyik. Torpaqlarımızı işğaldan azad etmişik. Hər yer abadlaşdırılır, dəyişir. Bütün bunlar diqqətimizdən yayınmır, fərəhlənirik, ürəyimiz sevinclə dolub-daşır. Amma yenə deyirəm, Azərbaycanı sevən, Avropanın inkişaf etmiş ölkələrinə səpələnmiş həmyerlilərimizin Vətənlərinə gediş-gəlişləri sadələşdirilsə, daha yaxşı olar.

**Müsahibəni qələmə aldı:**
**Anar TURAN,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2023.- 11 yanvar.- S.10.